## *Gənc dost!*

Baxmayaraq ki, sən uşaqsan, sənin 18 yaşın hələ olmayıb, sənin də öz hüquqların var.



**Hüquq** – dövlət tərəfindən müəyyənləşdirilmiş əxlaqi qaydalardır

Kim bu qaydaları yerinə yetirmək istəmirsə, dövlət onu buna məcbur edir.

Bu qayda və qanunları haradan oxuyaq, hansı mənbəyə müraciət edək?..........**QANUN**

Qanun – qanunverici orqanlar tərəfindən qəbul edilmiş normativ aktlardır.



*Qanun ali hüquqi qüvvəyə və təsirə malikdir. Sənin hüquqların da qanunlarda əks olunub.*

*Sənin bütün hüquqların bu sənəddə yazılıb:*

***Uşaq Hüquqları Konvensiyası***

Yəqin sən fikirləşirsən ki, hüquqların tez-tez pozulur?

Ona görə də istərdik ki, konvensiyaya daxil olan hüquqlarının əsas maddələrini bilməklə həyatda tətbiq edə biləsən

İlk öncə yadda saxla ki,
Sən öz hüquq və vəzifələrini bilməklə yanaşı digərlərinin də hüquqlarına hörmət etməlisən.

Böyüklər uşaqların maraqlarına riayət etməli, baxmalıdırlar *(maddə 3)*

*(maddə 6)* Hər bir uşaq yaşamaq və sağlam inkişaf etmək hüququna malikdir

*(maddə 12)* Hər bir uşağın sərbəst, azad öz fikrini söyləmək hüququ var.

*(maddə 31)* Uşaqlar yaradıcılıq, istirahət, idman və incəsənətlə məşğul olmaq hüququna malikdirlər

*(maddə 8)* Hər bir uşağın fərdi ad, vətəndaşlıq və ailə hüququ var.

*(maddə 24)* . Hər bir uşaq pulsuz səhiyyə xidmətindən istifadə etmək hüququna malikdir.

*(maddə 15)* Uşaqlar toplaşmaq və birlikdə özlərinə uyğun məsələləri həll etmək hüququna malikdirlər

*(maddə 7)* Hər bir uşaq öz valideynlərini tanımaqla onların sevgi və müdafiəsi hüququna malikdir.

*(maddə 30)* Hər bir uşağın dinindən, irqindən, milliyətindən asılı olmayaraq hüquqları var

*(maddə 19)* Hər bir uşaq qəddar rəftardan müdafiə hüququna malikdir.

***əlaqə telefonumuz: 495-39-34***

F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI

# SƏN VƏ QANUN

(5-7-ci sinif şagirdləri üçün)

Bakı, 2010